# Əkin subsidiyasının məbləğinin müəyyənləşdirilməsi proseduru açıqlanıb

Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi ilə bağlı proses davam edir. Hazırda fermerlərin sistemə daxil etdiyi torpaq sənədlərinin və payızlıq əkin məlumatlarının yoxlanılması aparılır.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, payızlıq əkinlərlə bağlı subsidiyaların verilməsi yoxlamaların tamamlanması ardıcıllığına uyğun olaraq mərhələli qaydada həyata keçiriləcək. Artıq ilkin sənəd qəbulundan sonra hesablanmış subsidiya məbləğləri barədə məlumatı ehtiva edən elektron bəyannamə-ərizələr fermerlərin şəxsi kabinetlərinə göndərilib. Bununla bağlı fermerlərin mobil nömrələrinə müvafiq SMS göndərilib və onlar şəxsi kabinetə bildiriş göndərilməsi ilə bağlı məlumatlandırılıblar. Elektron bəyannamələr fermer tərəfindən 3 gün ərzində təsdiqlənməditi təqdirdə avtomatlaşdırılmış qaydada təsdiqlənəcək və yoxlama mərhələsinə yönləndiriləcək. Bu məlumatlarla razı olmayan fermer elektron kabineti vasitəsilə müraciət edə, yaxud DAİM-lərə (Dövlət Aqrar İnkişaf Mərkəzləri) gəlib təklif və ya şikayətini təqdim edə bilər.

Yoxlamalar - sənədlər əsas götürülməklə a) inteqrasiya vasitəsilə digər qurumlardan əldə edilən məlumatlarla uzlaşdırma, b) peyk yoxlaması, c) aidiyyəti orqanlara sorğuların göndərilməsi, d) yerində yoxlamalar vasitəsilə həyata keçiriləcək. Yoxlama nəticəsində yekun subsidiya məbləği dəqiqləşdirilmiş olacaq, fərqliliklər barədə fermerlərə bildirişlər göndəriləcək. Burada əhəmiyyətli olan doğru torpaq sənədinin təqdim edilməsi və həmin torpaq ərazinə əkilən bitki hek-




tarı və növü barədə doğru informasiyanın sistemə təqdim edilmiş olmasıdır. Kənarlaşmalar barədə qəbul edilən yeni qaydaya uyğun tədbirlər görüləcək.

Çoxillik əkmələrlə bağlı edilən bəyanlara uyğun olaraq hesablamaların, yoxlamaların aparılması və optimal müddətdə ödənişlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli Fərmanına əsasən, bitkiçilik sahəsində subsidiyaların hesablanmasında istifadə olunan baza məbləği 200 manat müəyyən edilib. Hər bir fermer üçün sənədlərini təqdim etdiyi torpaq sahələrində əkdiyi və bəyan etdiyi bitki növü üzrə baza məbləğinə əmsal tətbiq edilməklə əkin subsidiyası hesablanır.

Əkin subsidiyası veriləcək bitkilər üzrə əmsallar barədə Aqrar Subsidiya Şurası tərəfindən qərar qəbul edilərək ictimaiyyətə elan edilib (<http://akia.gov.az/az/single/36>). Fermerlər bu subsidiya məbləğini 2019-cu ildən onların istifadəsinə verilən kalkulyator <http://akia.gov.az/az/calc/> vasitəsilə öyrənə bilirlər.

Nəzərə alınmalıdır ki, pambıq, tütün, fındıq, çəltik, çay bitkilərinin istehsalı Aqrar Subsidiya Şurası tərəfindən müəyyən edilən rayonlar üzrə dəstəklənir. Burada məqsəd qeyd edilən bitkilərin yüksək məhsuldarlıq əldə edilən və ya edilə biləcək rayonlar üzrə istehsalının dəstəklənməsidir.

Əkin subsidiyası üzrə növbəti yenilik damcı suvarma sistemi ilə təmin olunmuş yeni intensiv meyvə bağlarına daha yüksək əmsalla (2-4 arası) dəstəyin müəyyənləşdirilməsi və bu dəstəyin ilk 4-5 il ərzində davam etməsidir. Üzüm və intensiv meyvə bağları üzrə subsidiyalar 2019-cu ildən başlayaraq salınmış bağlara şamil ediləcək. Digər meyvə bağlarına görə, əkin subsidiyası 1,2 əmsalı üzrə veriləcək. Subsidiya veriləcək digər meyvə bağlarında 1 hektara əkilmiş tinglərin minimum sayının 90 ədəd olması şərti müəyyənləşib.

Əkin subsidiyası üzrə xidmətin reqlamenti https://www.dxr.az/xidmet/-6E6B75BE-5ADF-47F7-A327-BA0F02653E16/23A0CB12-5A60-C311-BF0D-6C3BE51E53F1 <https://www.dxr.az/xidmet/6E6B75BE-5ADF-47F7-A327-BA0F02653E16/23A0CB12-5A60-C311-BF0D-6C3BE51E53F1> ünvanında vətəndaşların diqqətinə təqdim edilib.

# Vergi Məcəlləsinə edilən dəyişikliklərin məqsədləri üzrə izah materialı

**(Əvvəli ötən nömrəmizdə).**

Bu dəyişikliyin mahiyyəti sabit qəbz almalı olan vergi ödəyicilərini belə qəbz alınmadan işlərin yerinə yetirilməsinə cəlb edən vergi ödəyicisi olan sifarişçilərə nəzarət mexanizminin qurulmasıdır. Sabit qəbz almalı olan, lakin sabit qəbz almadan sifarişçi vergi ödəyicisinə işlərin yerinə yetirilməsinə cəlb edilmiş hər bir fiziki şəxsə (aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlə məşğul olan şəxslərin, foto, audio-video sahəsində məşğul olan şəxslərin və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslərə (ofisiantlara)) görə əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin işlərin yerinə yetirilməsinə cəlb edilməsi halında da olduğu kimi Vergi Məcəlləsinin 58.10-cu maddəsində nəzərdə tutulmuş maliyyə sanksiyası tətbiq ediləcəkdir.

✓POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılması hallarına və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbul olunmasından imtina hallarına nəzarət edilməsi və müvafiq qaydada maliyyə sanksiyalarının tətbiqi;

Məlum olduğu kimi, qanunvericiliyə uyğun olaraq nağdsız ödənişlərin aparılması üçün POS-terminalların quraşdırılmasını təmin etmək vergi ödəyicisinin vəzifəsi olsada, bu vəzifənin icra edilməməsinə və ya POS-terminal vasitəsilə nağdsız ödənişlərin qəbul olunmasından imtina edilməsinə görə vergi ödəyicilərinə məsuliyyət tədbiri nəzərdə tutulmurdu. 1 yanvar 2020-ci il tarixdən isə POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılmamasına və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbul olunmasından imtina olunmasına görə vergi ödəyicisinə müvafiq maliyyə sanksiyalarının tətbiq nəzərdə tutulur.

Məlumat üçün bildiririk ki, POS-terminalların quraşdırılması məcburi olan obyektlər aşağıdakılardır:

1. dövriyyəsindən və ərazisindən asılı olmayaraq ƏDV ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri) (vergi ödəyicisinin ƏDV məqsədləri üçün qeydiyyata alındığı tarixdən);

2. dövriyyəsindən və ərazisindən asılı olmayaraq avtomobil və mebel satışı üzrə ixtisaslaşmış müəssisələr, idman və sağlamlıq kompleksləri, səhiyyə obyektləri, istirahət və əyləncə obyektləri, mehmanxanalar, şadlıq evləri, yanacaqdoldurma məntəqələri, hava, su, dəmiryol və avtomobil nəqliyyatı vasitələri ilə sərnişindaşımada biletlərin satışını həyata keçirən satış məntəqələri və turizm şirkətləri (təsərrüfat subyektinin (obyektinin) qeydiyyata alındığı tarixdən);

3. rüb üzrə orta aylıq dövriyyəsi 2000 (iki min) manatdan artıq olan vergi ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri);

4. hüquqi şəxslərə və fərdi sahibkarlara məxsus minik avtomobili ilə (taksi) sərnişin daşınmasını həyata keçirən nəqliyyat vasitələri;

5. vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanları.

Əlavə olaraq qeyd edək ki, əvvəlki ildə vergi qanunvericiliyinə edilmiş dəyişikliklərdə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə həm istehlakçılara həm də sahibkarlara vergi güzəştləri nəzərdə tutulmuşdur. Eyni zamanda aparılmış dəyişikliyə əsasən vergi ödəyicisi tərəfindən eyni əməliyyat üzrə bu Məcəllənin 58.7-ci maddəsində nəzərdə tutulan hesablaşma qaydalarının pozulması hallarına eyni vaxtda yol verildikdə həmin qanun pozuntularına bir pozuntu halı kimi baxılır və maliyyə sanksiyası bir dəfə tətbiq edilir.

✓ƏDV ödəyicilərinin bank hesabları üzrə aparılmış əməliyyatlar barədə məlumatların elektron formada banklar tərəfindən aylıq olaraq dövlət vergi orqanlarına təqdim edilməsi;

1 yanvar 2020-ci ildən etibarən ƏDV tutulan əməliyyatın vaxtı təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödəmənin aparıldığı vaxt hesab olunduğundan səmərəli vergi nəzarəti mexanizminin qurulması məqsədilə ƏDV ödəyicilərinin bank hesabları üzrə aparılmış əməliyyatlar barədə məlumatların aylıq olaraq əldə edilməsi nəzərdə tutulur.

✓Vergilərin azaldılmasına və digər vergi hüquqpozmalarına görə maliyyə sanksiyanın tətbiqi üçün əsas yaradan müvafiq sənədləşmə tələblərinin dəqiqləşdirilməsi;

**(Ardı gələn nömrəmizdə).**

# Payızlıq əkinlərlə bağlı məlumatlara "Azərkosmos"dan nəzarət edilir

Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) payızlıq əkinlərə dair bəyan edilmiş məlumatların yoxlanılması prosesinə başlanıb.

AZƏRTAC xəbər verir ki, EKTİS-də yoxlamalar Kənd Təsərrüfatı Nazirliyi tərəfindən üç istiqamətdə aparılır:

a) Torpaq üzərində mülkiyyət hüququnu təsdiq edən sənədlərin yoxlanılaraq təsdiq edilməsi aidiyyəti qurumların müvafiq elektron sistemləri ilə inteqrasiya, sənədlərin əsli və yaxud aidiyyəti orqana sorğu verilməsi əsasında həyata keçirilir. Torpaq sənədlərinin yoxlanılması EKTİS-də qeydiyyatdan keçmiş bütün fermerləri əhatə edir.

b) Peyk şəkilləri, məsafədən zondlama metodları və digər stasionar vasitələrdən istifadə etməklə kameral yoxlamalar aparılır. Nazirliyin Coğrafi Məlumatlar Bazasına daxil edilmiş ortofotolar, müxtəlif vektorizasiya məlumatları, "Azərkosmos"-dan alınmış peyk şəkilləri, layihələrin nəticələri, məsafədən zondlama metodları peyk yoxlamalarının əsasını təşkil edir. Nazirlik tərəfindən pilot olaraq seçilmiş 4 rayonun dörd kəndi üzrə həm sənəd, həm də peykdən əkin vəziyyətinin yoxlamaları yekunlaşıb. Monitorinq zamanı uyğunsuzluq şübhəsi doğuran sənədlərə dair bildirişlər göndəriləcək və həmin ərazilərdə yerində yoxlamalar aparılacaq.

c) EKTİS-də ilk iki istiqamət üzrə yoxlamaların nəticələri əsas götürülərək sistem üzərindən seçmə şəkildə yerində yoxlamalar aparılır.

Artıq peykdən çəkilmiş fotolar əsasında fermerlərin sistemə daxil etdikləri bəyan məlumatları dəqiqləşdirilir. EKTİS-də payızlıq əkinlərini bəyan etmiş və torpaq sənədləri ilə bağlı məlumatları sistemə daxil edilmiş fermerlərə sistem üzərindən müvafiq bildiriş göndəriləcək. Beləliklə, elektron ərizələr EKTİS-Subsidiya İnformasiya Sistemində qəbul edilərək yuxarıda qeyd edilən formada monitorinqə yönləndiriləcək. Subsidiya almaq üçün formalaşdırılan elektron bəyannamələrin yekun təsdiqi və fermerə ödəniləcək məbləğ monitorinqlər nəticəsində müəyyən ediləcək. EKTİS-də bəyan edilmiş torpaq məlumatlarına (torpağın sənədi, əkin aparılan sahə və s.) və payızlıq əkin növünə (arpa, buğda, yonca və s.) dair bəyannamənin düzgünlüyünə fermer məsuliyyət daşıyır. Bu səbəbdən fermerlərə bəyan etdiyi məlumatlarda səhvlər varsa, düzəliş etmək üçün Dövlət Aqrar İnkişaf mərkəzlərinə müraciət etmək tövsiyə olunur.

Yanvarın 10-dək 173 min fermerin şəxsi kabinetində əkin subsidiyası ilə bağlı elektron ərizə formalaşdırılıb. Fermerlər üç gün ərzində məlumatları yoxlayaraq elektron ərizə formasını təsdiq etməli və ya müvafiq düzəlişlərin edilməsi üçün DAİM-ə yaxınlaşmalıdırlar. Etiraz edilməyən ərizələr avtomatlaşdırılmış qaydada monitorinqə yönləndirilir.